Bakı Slavyan Universitetinin
ELMİ ƏSƏRLƏRİ

УЧЕНЫЕ ЗАПИСКИ
Бакинского славянского университета

İctimai-siyasi elmlər Seriyası 2019-№2 Серия общественно-политических наук

FƏLSƏFƏ, SOSİOLOGİYA, İLAHİYYAT

ФИЛОСОФИЯ, СОЦИОЛОГИЯ, ТЕОЛОГИЯ

**Quliyeva Hafizə Baris qızı**
*Azərbaycan Turizm və Menecment Universiteti*
*hafiza.guliyeva84@gmail.com*

# YENİYETMƏ ANALARIN İDENTİFİKASİYASI PROSESİNDƏ SOSİAL, PSİXOLOJİ VƏ HÜQUQİ ASPEKTLƏRİN TƏHLİLİ

***Açar sözlər:*** *yeniyetmə, erkən yaşda hamiləlik, erkən nikah.*
***Keywords:*** *adolescence, teenage pregnancy, teenage marriage.*
***Ключевые слова:*** *подростковый возраст, подростковая беременность, подростковый брак.*

Yeniyetməlik dövründə rastlanan erkən hamiləlik evlilik daxili və xaricində olan mikro və makro faktorların təsiri ilə ortaya çıxır. Ailə və icma qaydaları, adət-ənənələr, iqtisadi vəziyyət bu faktorlara aid edilə bilər. Həyata keçirilən siyasət və təklif olunan xidmətlər isə erkən yaşda hamiləlik yaşayan qızların həyatına pozitiv və ya neqativ təsir göstərə bilər. Qlobal İnkişaf Mərkəzinin 2012-ci il üzrə hesabatında qeyd olunur ki, hamiləlik təhsil və səhiyyə xidmətlərinə əlçatarlığa mane ola bilməz. Eləcə də uşaq dünyaya gətirməklə bağlı sosial təyziqlər aradan qalxmalıdır [1, p.5]. Yeniyetmə qızların hamiləliyi iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq bütün ölkələr üçün xarakterikdir. Dünyada əsasən erkən yaşda hamiləlik problemi marginallaşmış,

yoxsul və təhsil imkanları zəif olan icmalarda daha çox rast gəlinir. Bu cür icmalarda hamiləlik və uşağın dünyaya gətirilməsi, əsasən, planlı və arzuolunan olur. Bu isə qızların erkən yaşda məcburi olaraq nikaha və uşaq dünyaya gətirməsinə məcbur edilməsi ilə həyata keçirilir. Hər il 16 milyon qız uşağı 18 yaşına çatmamış erkən nikaha daxil olur və qız uşaqlarının böyük əksəriyyəti də erkən nikahlar nəticəsində dünyaya gəlir [2, p. 10].

Yeniyetmələrin bir qisminin hamiləliyi isə arzuolunan və planlı şəkildə gerçəkləşmir. İqtisadi baxımdan zəif inkişaf edən ölkələrdə problemin daha kəskin nəticələri olur. Belə ki, yeniyetmə yaşda ana olan şəxslər hüquqlarının müdafiəsi ilə bağlı məlumatsız olmaqla yanaşı, həm də ölkələrin milli qanunvericiliyində bu şəxslərin hüquqlarının reallaşmasında boşluqlar müşahidə olunur. Yeniyetmə yaşda ana olan qızlar bir çox hallarda tibb işçiləri və digər vəzifəli şəxlərin qərəzli münasibəti və iqtisadi çətinliklərlə də qarşılaşırlar. Yeniyetmə analar mütəmadi olaraq ayrı-seçkiliklə qarşılaşdıqları üçün onlar bəzən xidmətlərdən könüllü olaraq imtina edirlər. Bu isə gələcəkdə onların, eləcə də övladlarının sağlamlığı və hüquqlarının reallaşması ilə bağlı ciddi manelərə gətirib çıxarır. Halbuki yeniyetmə qızlar bir çox hallarda məcburi nikah və cinsi zorakılıq səbəbindən istənməyən hamiləlik yaşayırlar. Dünyada qızların 16%-i uşaq və yeniyetmə yaşda cinsi zorakılığa məruz qalırlar [3, p.9]. Yeniyetmə yaşda hamiləlik bir sıra səbəblərdən müşahidə olunur: 1) Uşaq və yeniyetmələr arasında maarifləndirmə tədbirlərinin zəif həyata keçirilməsi. Cəmiyyətdə mövcud olan dəyərlər yeniyetmələrin zamanında məlumatlı olmasına mane olur. Valideynlər, eləcə də yeniyetmələrin təhsil aldıqları məktəblər qorunmamış cinsi münasibətlə bağlı yeniyetmələri məlumatlandırmır. 2) Kontrasepsiya ilə bağlı stereotip yanaşmanın mövcud olması. Kişilər tərəfindən irəli sürülən bu stereotip yanaşma və qadınların partnyotlarını itirmə qorxusu kontraseptivlərin istifadəsindən imtinaya gətirib çıxarır. 3) Cinsi zorakılıq. Erkən yaşda hamiləlik problemi ilə qarşılaşanların 16%-i cinsi istismara məruz qaldıqlarını bildirir. Cinsi zorakılıq bəzən ailə üzvləri, yaxın qohumlar tərəfindən törədilir. 4) Ağır sosial-iqtisadi vəziyyət. Bu, iqtisadi baxımdan zəif inkişaf etmiş ölkələr üçün xarakterikdir. Uşaqların doğumu ilə bağlı ödənən müavinətlər bəzən ailənin tək gəlir mənbəyi olur [4, p.26].

Erkən yaşda rastlanan hamiləliyin bir sıra neqativ nəticələri ola bilər ki, bunların əvvəlində isə tibbi problemlər gəlir. 15-19 yaş arası qadınların ölüm səbəbləri kimi uşaq dünyaya gətirmək ilk sıralarda yer alır. Eləcə də, 15 yaşdan 49 yaşa qədər olan ana ölümləri zəif və orta iqtisadi gəlirə malik ölkələrin payına düşür. 15-19 yaş arası qızlarda arzuolunmaz hamiləlik abortla nəticələnir ki, bu da bəzən ana üçün həyati təhlükə yaradır [3, p.18]. Yeniyetmə anaların qarşılaşdıqları iqtisadi və sosial problemlər onların ailələri ilə bağlıdır. Nikahdankənar hamiləlik yaşayan yeniyetmə qızlar ailələri tərəfindən diskriminasiya və zorakılıqla qarşılaşırlar. Bu vəziyyət onların təhsildən uzaqlaşmasına və evliliyə məcbur edilməsinə də gətirib çıxarır. Eləcə də yeniyetmə qadınlar evli olduqda da hamiləlik müddətində həyat yoldaşları tərəfindən zorakılığa məruz qalırlar. Təhsil almaq imkanından məhrum olan yeniyetmə anaların

gələcəkdə iş tapmaq imkanları da məhdud olur. Bu məhdudiyyət cəmiyyətdə gender bərabərliyi və qadınların hüquqlarının pozulmasına gətirib çıxarır. Qeyd edilən səbəblərdən qadınların iqtisadi aktivliyinin zəif olması dolayısıyla ölkə iqtisadiyyatına neqativ təsir göstərir. Erkən yaşda hamiləlik yeniyetmələri bir neçə seçim qarşısında qoyur: 1) Hamiləliyi davam etdirmək və dünyaya gələcək körpəni ailə mühitində böyütmək; 2) Hamiləliyi davam etdimək, lakin uşağı öz imkanları hesabına böyütmək; 3) Körpəni dünyaya gətirərək hər hansı bir müəssisə və ya ailənin himayəsinə vermək; 4) Hamiləliyi sonlandırmaq.

Təbii ki, hər ölkədə qanunvericilik fərqli olduğu üçün bu, körpənin dünyaya gəlib-gəlməməsi, yeniyetmə ananın bu məsələdə hüquqi statusu, ailənin prosesdə iştirak səviyyəsinə təsir göstərir. Yəni bəzən uşağın dünyaya gətirilməsi, bəzən isə abort məcburi ola bilər. Burada həkim tərəfindən verilən qərar və ya təklif, hamiləliyin neçənci həftədə olması da ananın qərarının dəyişməsinə gətirib çıxarır. Yeniyetmə yaşda ana olmağa qərar verən qızlar prosesə təsir edən aşağıdakı amilləri nəzərə almadıqda tibbi, sosial-iqtisadi, psixoloji problemlərlə qarşılaşa bilər: 1) Ailənin hamiləlikdən əvvəl və sonra yeniyetmə anaya dəstək səviyyəsi; 2) Çətin zamanlarda iş imkanın olub-olmaması; 3) Valideynliyin onlar üçün nə ifadə etməsinin müəyyənləşdirilməsi; 4) İqtisadi və psixoloji dəstəyin mövcudluğu; 5) Verilən qərarın gələcək planlara təsir səviyyəsi; 6) Tibbi və fiziki təhlükəsizliyin, qayğının olması, qınaq olmaması. Digər əhəmiyyətli qərarlarla müqayisədə burada vaxtında düzgün qərar qəbul etmədikdə bu həm ana, həm də dünyaya gələcək körpə üçün arzuolunmaz nəticələrə gətirib çıxara bilər. Belə ki, vaxtında tibbi müayinənin və müdaxilənin olmaması ana və ya körpənin həyatını təhlükə altına ala bilər. Ümumilikdə isə erkən yaşda hamiləlik nəticəsində doğumun gerçəkləşdirilməsi uşaq və ana üçün həyati risk yaradır. Ana və uşaq ölümləri, əlilliyi olan uşaqların dünyaya gətirilməsi orta yaşla müqayisədə yeniyetmələrin hamiləliliyi nəticəsində daha çox müşahidə olunur. Eləcə də abort qərarının gecikməsi körpənin və ananın gələcək həyatına neqativ təsir göstərə bilər. Bu təsirlər sırasında doğuma az qaldığı müddətdə qeyri-qanuni abortun həyata keçirilməsi, uşağın dünyaya gəldikdən sonra tərk edilməsi, ananın iqtisadi cəhətdən çətinlik yaşamasını qeyd etmək olar [5, p.48]. Azərbaycanda da erkən nikahlara və yeniyetmə yaşda hamiləlik hallarına rast gəlinir. Bununla yanaşı, bu istiqamətdə qanunvericilik təkmilləşdirilir. Belə ki, Azərbaycan Respublikası uşaq hüquqlarının müdafiəsi ilə bağlı bir sıra beynəlxalq sənədləri ratifikasiya etmiş, milli qanunvericilik təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmışdır. 1998-ci il "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanunu, 1999-cu ildə "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu, 2003-cü ildə "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir [6; 7; 8]. Azərbaycan Respublikası Cinayət Məcəlləsinə "Qadını nikaha daxil olmağa məcbur etmə" (maddə 176.1.) maddəsi əlavə edilmişdir. Həmin maddəyə əsasən qadının nikaha daxil olmağa məcbur edilməsi zamanı məcbur edən tərəf iki min manatdan üç min manatadək

miqdarda cərimə və ya iki ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər nikah yaşına çatmayan şəxs barəsində törədildikdə üç min manatdan dörd min manatadək miqdarda cərimə və ya dörd ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eləcə də Cinayət Məcəlləsinin 149, 150, 151, 152 və 153-cü maddələri azyaşlılara qarşı əxlaqsız hərəkətlər zamanı nəzərdə tutulan cəzanı müəyyən edir. Azərbaycanda erkən nikaha daxil olma qadınların ümumi sayına nisbətdə müxtəlif illər üzrə 5-7% arası təşkil edir. Yeniyetmə qızların 1,6%-i hamilə olduqları üçün erkən nikaha daxil olmağa məcbur olmuşdur. 2007-2017-ci illər arasında Azərbaycanda 28 min qız erkən nikaha cəlb olunub. Ancaq erkən nikahlar rəsmi olaraq qeydə alınmadığı üçün statistik rəqəmlər reallığı tam əks etdirmir. Azərbaycanda da erkən nikahların sayının çox olmasında yoxsulluq və təhsil səviyyəsinin aşağı olması böyük rol oynayır. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin hesabatına əsasən 2018-ci ildə 15-17 yaş qruplarında olan qadınlar tərəfindən doğulan uşaqların sayı 2129 nəfər təşkil etmişdir. Qeyd edək ki 1990-2018-ci illər arasında yeniyetməlik yaşında ana olan qadınların sayında ən az göstərici 1990-cı ilə aiddir. Belə ki, 1990-cı ildə 151 nəfər yeniyetmə qız ana olmuşdur. Sonrakı illərdə bu rəqəmlər sürətlə artmış, ən yüksək göstərici isə 2011-ci ilə (4392 nəfər) aid olmuşdur (şəkil 1).

***Şək. 1. Azərbaycanda 15-17 yaş qruplarında olan analar tərəfindən doğulanların sayı (illər üzrə nəfərlə)***




Mənbə: Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi// https://www.stat.gov.az/source/demoqraphy/

Lakin 1990-2017-ci illərdə bütün dünyada 15-19 yaş arası qadınların hamiləlik və uşaq dünyaya gətirmə faizində əvvəlki illərlə müqayisədə son dövrlərdə azalma müşahidə olunur. Belə ki, 1990-cu ildə hər 1000 nəfər qadına 59,9 nəfər yeniyetmə hamilə qadın düşdüyü halda, 2017-ci ildə bu rəqəm 18,8 nəfər təşkil et-

mişdir. Dünyada ən yüksək göstərici 1991-ci ilə aiddir. Həmin il 15-19 yaş arasında olan hər 1000 nəfər qadından 61,8 nəfəri uşaq dünyaya gətirmişdir [9]. Ayrı-ayrı ölkələrlə müqayisə etdikdə iqtisadi baxımdan nisbətən inkişaf etmiş cəmiyyətlərdə erkən yaşda ana olanların sayında son illərdə azalma müşahidə olunur. BMT-nin Əhali Fondunun 2018-ci il üzrə statistikasına əsasən 15-19 yaş arasında olan hər 1000 nəfər qadından 229 nəfəri Mərkəzi Afrika Respublikası, 194 nəfəri Mozambik, 179 nəfəri Çad, 174 nəfəri Mali, 163 nəfəri Anqola, 159 nəfəri Cənubi Sudan, 152 nəfəri isə Madaqaskarda erkən yaşda hamiləlik problemi yaşayaraq bütün dünyada ilk sırada yer alırlar. Problemin ən az rast gəlindiyi ölkələr isə ABŞ, Avstraliya və inkişaf etmiş Avropa ölkələridir. Azərbaycan isə bu hesabatda üçüncü sırada (hər 1000 nəfər qadına 53 nəfər) yer alır [10].

Azərbaycanla müqayisədə Türkiyədə də 2008-2017-ci illər arasında erkən yaşda hamiləlik və uşaq dünyaya gətirmə faizində azalma müşahidə olunur. 15 və daha aşağı yaşlarda uşaq dünyaya gətirənlərin sayı 82% azalaraq 1261 nəfərdən 227 nəfərə, 15-17 yaşlarında uşaq dünyaya gətirənlərin sayı 57% azalaraq 33719 nəfərdən 14554 nəfərə enmişdir. Lakin Türkiyədə uşaq dünyaya gətirən qadınların sayı bütün yaş qrupları üzrə azalmışdır [11]. Bu onu göstərir ki, ölkədə həyata keçirilən sosial siyasət tək yeniyetmə yaşda bağlanan nikahların qarşısının alınmasına xidmət etmir. Lakin istənilən halda qanunvericilik və həyata keçirilən sosial siyasət problemin aradan qaldırılmasında əsas rol oynayır.

Yeniyetmə yaşda qızların ana olması əsas sosial problemlərdəndir. Bu problem həm cəmiyyət, həm də ailələrin daxilində olan dəyərlərdən qaynaqlanır. Ailələr, əsasən, qızlarını erkən nikaha cəlb edərək onların yeniyetmə yaşda ana olmalarına səbəb olurlar. Eyni zamanda yeniyetmə yaşda həmyaşıdları və daha böyük yaşda olan insanlarla münasibət quran qızlar bu problemlə qarşılaşırlar. Bu kateqoriyaya əsasən natamam, münaqişəli ailələrdə, xüsusi müəssisələrdə böyüyən yeniyetmələr aid edilə bilər. Bir çox hallarda yeniyetmə qadınlar övladları ilə birgə yalnız yaşamağa məcbur qalırlar. Erkən yaşda nikahlar rəsmi olmadığı üçün yeniyetmə analar övladlarının və özlərinin hüquqlarını müdafiə etmətdə çətinlik çəkirlər. Yeniyetmə yaşda təhsildən, sosial həyatdan uzaqlaşıb ana olan qızlar bəzən isə insan alverçilərinin də hədəfinə çevrilir.

Problemin həlli də həm fərdi, həm struktural dəyişikliklər tələb edir. Fərdi qaydada valideynlərin xüsusilə qız övladlarına yeniyetmə yaşda nikahın və hamiləliyin bilologi, psixoloji və sosial baxımdan neqativ təsirlərini izah etmələri nəzərdə tutulur. Struktural qaydada isə məktəblərdə problemin yarada biləcəyi fəsadların yeniyetmələrə izah olunması, problemlə mübarizə istiqamətində dövlət siyasətinin təkmilləşdirilməsinə ehtiyac vardır.

**Tövsiyələr:** 1) Erkən nikahların qarşısının alınması üçün cəzanın ağırlaşdırılması, beynəlxalq təcrübənin mütəmadi olaraq öyrənilməsi və tətbiqi; 2) Erkən hamiləlik yaşayan və erkən nikaha daxil olan qızların hüquqlarının müdafiəsi ilə bağlı qaynar xətt xidmətinin yaradılması; 3) Ölkənin bütün regionlarında yeniyet-

mə anaların hüquqları barədə məlumat alması, eləcə də xidmətlərdən faydalanması üçün xidmət məntəqələrinin yaradılması; 4) Yeniyetmələrin və dünyaya gətirəcəkləri körpələrin sağlamlığı və təhlükəsizliyinin təmin olunması məqsədilə doğuşdan əvvəl və sonra tibbi xidmətlərdən tam şəkildə istifadəsinə şərait yaratmaq; 5) Erkən yaşda hamiləlik yaşayan qızların təhsil imkanlarından faydalanmasına şərait yaratmaq

**ƏDƏBİYYAT**


1. Adolescent Fertility in Low and Middle Income Countries: Centre for Global Development. Washington, 2013, 65 pages
2. Girlhood, not motherhood: Preventing adolescent pregnancy. New York: UNFPA, 2015, 62 pages
3. Global and regional estimates on violence against women: Prevalence and health effects of intimate partner violence and non-partner sexual violence. Geneva: WHO, 2015, 58 pages
4. Naomi Farber Springer. Adolescent Pregnancy: Policy and Prevention Services. Publishing Company, 2017, 304 pages
5. Teenage Sex and Pregnancy: Modern Myths, Unsexy Realities By Mike A. Males Praeger, 2010, 253 pages
6. Uşaq hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu // http://www.e-qanun.az/framework/3292
7. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında Azərbaycan Respublikasının Qanunu // http://www.e-qanun.az/framework/3859
8. Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında Azərbaycan Respublikasının Qanunu // http://www.e-qanun.az/framework/2215
9. Trends in Teen Pregnancy and Childbearing. Teen Births // https://www.hhs.gov/ash/oah/adolescent-development/reproductive-health-and-teen-pregnancy/teen-pregnancy-and-childbearing/trends/index.html
10. Adolescent birth rate by country // https://data.unicef.org/topic/child-health/adolescent-health/
11. 15-17 yaşları arasındaki anne sayısı // https://www.trthaber.com/haber/turkiye/15-17-yaslari-arasindaki-anne-sayisi-yuzde-57-dustu-366136.html



**Гулиева Хафиза Барис гызы**


**Анализ социальных, психологических и правовых аспектов в идентификации матерей-подростков**


**РЕЗЮМЕ**

В качестве глобальной проблемы анализируются статистические данные о подростковой беременности, причинах возникновения проблемы. Были проанализированы негативные последствия подростковой беременности для их прав. Плохое образование, сексуальное насилие, семейное давление, бедность, подростковый брак были определены как основные причины этой проблемы в мире, а также в Азер-

байджане. Были проанализированы сходные и различные особенности, связанные с проблемой, и выявлены недостатки в Азербайджане и других странах с использованием метода сравнительного анализа. Были внесены предложения по индивидуальным и структурным мерам по предупреждению подростковой беременности.

**Quliyeva Кhafiza Baris**

**Analysis of the social, psychological and legal aspects of the identification of adolescent mothers**

**SUMMARY**

Analysis of statistical data on teenage pregnancy, causes of the problem were reviewed as a global problem, in the article. The negative effects of teenage pregnancy on their rights were analyzed. Poor education, sexual violence, family pressure, poverty, teenage marriage was identified as the main causes of this problem in the world, as well as in Azerbaijan. Similar and different features related to the problem were analyzed, and revealed deficiencies among Azerbaijan and other countries with using a comparative analysis method. Proposals were made on individual and structural measures to prevent teenage pregnancy.

*Rəyçi: dos. Aynur Bağırlı*